20 YANVAR ÜMUMXALQ HÜZN GÜNÜDÜR

Azadlıq uğrunda canlarını qurban verən şəhidlərimiz ölməzliyə qovuşaraq Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizədə əsl qəhrəmanlıq nümunəsi göstərdilər. Azadlıq və müstəqillik ideyaları Vətən övladlarının başlıca şüarı, arzu və idealı idi. İyirmi Yanvar hadisəsi xalqımızın yaddaşına qanlı faciə kimi daxil olsa da, bütövlükdə milli tariximizin ən şanlı və qəhrəmanlıq səhifələrindən birini təşkil edir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin sözləri ilə desək, öz əməlləri ilə xalqa, millətə sədaqəti ilə, xalqın milli istiqlaliyyəti ruhunu yüksəklərə qaldırılması ilə dünyalarını dəyişənlər müqəddəs insanlardır. Onlar cisman bu dünyadan getsələr də, ruhən bizim qəlbimizdədirlər.

20 Yanvar faciəsi Azərbaycan xalqının tarixinə milli birliyimizin və özünüdərkin, xalqımızın müstəqillik uğrunda apardığı mübarizənin qəhrəmanlıq günü kimi daxil oldu. Qanlı Yanvar hadisələri Azərbaycan xalqının milli bütövlüyünü, milli birliyini və həmrəyliyini təsdiqləyən ən mühüm hadisə, xalqımızın minilliklərdən bəri şərəfli tariximizin yaddaşına əbədi həkk olan qürurlu səhifəsi oldu. 20 Yanvar hadisələri bütün dünyanı lərzəyə saldı, çürüməkdə olan keçmiş sovet imperiyasının süqutunu sürətləndirdi, sovet dövlətinin rəhbəri M.Qorbaçovun avantürist və məkrli siyasətinin maskasını yırtdı, onun ikiüzlü və riyakar siyasətini, ermənipərəst mövqeyini açıq şəkildə göstərdi, xalqların bu dövlətə olan inamını birdəfəlik sarsıtdı.

20 YANVAR FACİƏSİ - GƏNCƏDƏ ONUN QARŞISI NECƏ ALINDI?..

20 Yanvar hadisəsi zamanı Azərbaycan xalqı hərbi, siyasi və mənəvi təcavüzə məruz qalsa da, bir daha qəhrəmanlıq ənənələrinə sadiq olduğunu, xalqımızın azadlığı və müstəqilliyi naminə ən ağır sınaqlara sinə gərmək və hətta şəhid vermək əzmini bütün dünyaya nümayiş etdirdi. Bəli, qəhrəman Vətən övladları şərəfli tariximizin salnaməsinə parlaq səhifələr yazdılar.

Azərbaycanda müstəqillik uğrunda aparılan hərəkat ümumxalq mübarizəsinə çevrildi və beləliklə, ümumi amal uğrunda aparılan məqsədə doğru istiqamətləndi. Xalqımızın milli azadlıq hərəkatını boğmağa cəhd edən sovet rəhbərliyi nə qədər buna çalışsa da, öz istəyinə nail ola bilmədi. Rəsmi Moskvanın ölkəmizə qarşı qərəzli mövqeyi açıq-aydın hiss olunurdu, ancaq Azərbaycan xalqı çökməkdə olan SSRİ-nin tərkibindən çıxıb öz müstəqilliyini bərpa etmək arzusunda idi. Ona görə də SSRİ rəhbərliyi Azərbaycan xalqının müstəqillik uğrunda apardığı mübarizəsinə və genişlənməkdə olan xalq hərəkatına açıq şəkildə divan tutmaq yolunu seçdi. Ancaq xalqımız öz müstəqilliyini bərpa etməkdə möhkəm dayanmışdı. 80-ci illərin sonu - 90-cı illərin əvvəllərində sovet imperiyası süqutunun son günlərini yaşayırdı.

1989-cu ilin sonu - 1990-cı ilin yanvarında Azərbaycanda ictimai-siyasi vəziyyət xeyli kəskinləşdi, qarşıdurma dərinləşdi, mövcud iqtidarın hadisələrə nəzarəti son dərəcə zəiflədi. Belə bir xaos vəziyyətində mərkəzin kəşfiyyat orqanları yanvarın 13-14-də Bakıda süni şəkildə erməni talanı təşkil etdi. Mərkəz tərəfindən bütün təfsilatı ilə düşünülmüş və taktiki baxımdan hərtərəfli hazırlanmış bu məkrli plan hazır ssenari üzrə aparıldı və gizli planlara uyğun olaraq gözlənilən nəticələri verdi. Moskvaya da elə bu lazım idi. Azərbaycan xalqına dərs vermək, müstəqillik uğrunda aparılan mübarizənin qarşısını almaq və milli azadlıq hərəkatına zərbə vurmaq üçün, habelə digər müttəfiq respublikalara ibrət olsun deyə çürüməkdə olan imperiyanı qorumaq məqsədilə 1990-cı il yanvarın 19-da ermənipərəst Qorbaçov "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman imzaladı. Lakin bu fərmanın tətbiqi barədə əvvəlcədən əhaliyə xəbər verilməmişdi. SSRİ rəhbəri M.Qorbaçovun göstərişi və o zamankı Azərbaycanın maymaq və səriştəsiz rəhbərlərinin razılığı ilə Bakıya qoşun yeridilməsi planlaşdırıldı. Azərbaycanı informasiya blokadasına almaq və onun haqq səsini boğmaq üçün SSRİ DTK-nın "Alfa qrupu" respublika radio və televiziya verilişlərinin baş enerji blokunu yanvarın 19-da axşam saat 19:20 radələrində xaincəsinə partlatdı. Respublika ərazisində radio və televiziya susduruldu, kütləvi informasiya vasitələrinə, qəzet və jurnalların nəşrinə qadağalar qoyuldu. Beləliklə, Azərbaycan tam şəkildə informasiya blokadasına düşdü, əhali hər hansı bir məlumat almaq mənbəyindən məhrum oldu. Halbuki Mərkəz tərəfindən tətbiq edilən fövqəladə vəziyyət haqqında fərmandan heç kimin xəbəri yox idi. Soyuq yanvar gecəsində haqqını, azadlığını tələb edən əhali Bakıda küçələrdə və meydanlarda toplanmışdı.

Xalqımızın milli azadlıq mübarizəsini qan içində boğmaq, habelə dağılmaqda olan imperiyanı məhv olmaqdan xilas etmək üçün amansız tədbirlərə əl atıldı. Mərkəz tərəfindən Azərbaycana qarşı aparılan mənəvi, ideoloji və siyasi təcavüz faciəli sonluqla bitdi, yanvarın 19-dan 20-nə keçən gecə dinc əhaliyə qarşı misli görünməmiş vəhşilik edildi. SSRİ Müdafiə nazirliyinin, SSRİ DTK-nın və SSRİ DİN-in xüsusi təlim görmüş qoşun hissələri 3 istiqamətdə Bakıya yeridildi və hərbçilər tərəfindən şəhər əhalisi ucdantutma gülləbaran edildi. Qadınlara, ahıl insanlara, uşaqlara, xəstələrə, hamilə qadınlara, hətta tibb işçilərinə belə aman verilmədi. Bəşər tarixində ən qanlı bir faciə dolu tarix yaşadıq həmin gün. İnandığımız, güvəndiyimiz bir dövlət öz xalqına, öz vətəndaşlarına qarşı əsl müharibəyə başladı, özü də müasir silahlarla. Dinc əhaliyə qarşı misli görünməmiş cinayət törədildi. Qanlı Yanvar qırğınları zamanı 147 nəfər öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs edildi, 4 nəfər itkin düşdü, yüzlərlə adam mənasız və təhqiramiz istintaqa cəlb edildi, respublikaya külli miqdarda maddi və mənəvi zərər vuruldu.

Heydər Əliyev Moskvadan Azərbaycan xalqına başsağlığı teleqramı göndərdi

Qeyd edək ki, xalqımız bu teleqramdan çox ürəkləndi, hamı başa düşdü ki, bu xalq tək deyil, onun sözünü deyən var, özü də ən yüksək səviyyədə. Çünki həmin günlərdə, yəni 20 Yanvar faciəsi törədilən zaman Azərbaycan dövləti və xalqı ağır iflic vəziyyətinə və informasiya blokadasına düşmüşdü, radio, televiziya susdurulmuş, qəzetlərin çapı dayandırılmışdı. Azərbaycan sanki kimsəsiz bir məmləkəti, imdad diləyən bir varlığı, zəif bir məxluqu xatırladırdı. Xalqın ümidi yalnız uca Tanrıya, ilahi bir varlığa idi. Heç yerdən kömək, eyni zamanda məlumat yox idi, əhali bütün informasiyalardan təcrid olunmuşdu. Ancaq sən demə, bu xalqın igid və qəhrəman oğulları, qeyrətli təəssübkeşləri, qorxmaz Vətən övladları, cəsur və yenilməz bahadırları varmış. Ölümün gözünə dik baxan, imperiyanın qorxu və xofunu rədd edən, sovet generallarının alnına və gözünün içinə tüpürən və heç nədən çəkinməyən qəhrəman övladlarımız həmin o qanlı-qadalı və hüznlü günlərdə əsl şücaət və yenilməz cəsarət nümayiş etdirdilər.

Dünya Azərbaycanda baş verən hadisələri izləyə bilmirdi. O zamankı Azərbaycan rəhbəri Ə.Vəzirov satqınlıq yolu tutaraq gizli şəkildə respublikadan qaçmışdı. Vəzifəyə gətirilən A.Mütəllibov isə Moskva himayədarlarının buyruqlarını müti şəkildə icra edirdi. Beləliklə, Azərbaycan xalqı başsız qalmışdı. Xalqının belə ağır vəziyyətində o zaman partiya və dövlət vəzifələrindən çıxarılmış, siyasi səhnədən uzaqlaşdırılmış, Moskvada uzaq bir yerdə yaşayan Heydər Əliyev böyük cəsarət nümayiş etdirərək yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək mətbuat konfransı keçirdi. Heydər Əliyev böyük cəsarətlə heç kimdən və heç nədən qorxmayaraq və öz şəxsi həyatını təhlükədə qoyaraq yanvarın 20-də Bakıda təşkil edilən

və törədilən qanlı faciənin səbəblərini və təşkilatçılarını obyektiv faktlarla doğru, düzgün və dəqiq açıqladı, bir çox məsələlərə aydınlıq gətirdi, qanlı aksiyanı törədənlərin səbəbkarlarının cinayət məsuliyyətinə cəlb edilməsini qətiyyətlə tələb etdi. Həmin mətbuat konfransında Heydər Əliyev çıxışında demişdir: "Azərbaycanda baş vermiş hadisələrin hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm. Azərbaycandakı vəziyyəti öz axarına salmaq, siyasi həyatdakı qeyri-sabitliyi nizamlamaq üçün kifayət qədər imkan olmuşdur. Təəssüf ki, Azərbaycanın rəhbərliyi, həmçinin ölkənin ali siyasi rəhbərliyi bu imkanlardan istifadə edə bilməmişdir". Elə həmin gün Heydər Əliyev Azərbaycan xalqına başsağlığı teleqramı göndərdi. Teleqramda deyilirdi: "Bakı şəhərinə sovet ordusu hissələrinin yeridilməsi ilə əlaqədar xalqımızın başına gətirilən faciədən, dinc əhalinin qırılmasından böyük ürəkağrısı ilə xəbər tutdum. Bu matəm günündə həlak olanların ailələrinə və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm".

Mitinq iştirakçıları qarşısında yüksək cəsarət və qətiyyət nümayiş etdirən Heydər Əliyev qorxmadan imperiya rəhbərlərini "qatillər" adlandırdı və bütün Azərbaycan xalqına baş vermiş faciə ilə əlaqədar başsağlığı verdi. Heydər Əliyevin bu cəsarətli bəyanatı kütləvi informasiya vasitələrilə bütün dünyaya yayıldı, blokadaya alınmış Azərbaycanın, qanına qəltan edilmiş xalqımızın, yüzlərlə övladını qurban verən millətimizin haqq səsini, fəryadını sanki **"SOS"** siqnalı vasitəsilə dünyaya çatdıran cəsarətli bir liderin, ürəyi daim Azərbaycanla döyünən müdrik bir ağsaqqalın, görkəmli ictimai-siyasi və dövlət xadimi olan dahi rəhbərin əsl qəhrəmanlığı və qətiyyəti idi. Heç yerdən köməyi olmayan xalqımız bu Vətən övladının cəsur və yenilməz bəyanatından güc tapdı, hünərlə imperiyanın qorxu və xofunu qətiyyətlə rədd edərək intensiv şəkildə azadlıq, müstəqillik uğrunda apardığı mübarizəni qələbəyədək davam və inkişaf etdirdi. Bəli, tarixin o mürəkkəb zamanında Heydər Əliyev əsl qəhrəmanlıq, nəsillərə nümunə olacaq igidlik və cəsarət nümayiş etdirmişdir. Heydər Əliyevin Moskvadakı tarixi çıxışının mətni bütün maneələrə baxmayaraq, respublikada və dünyada geniş yayıldı. Çıxışın mətni kasetlərə yazılaraq bütün Azərbaycan xalqının dilində əzbərə çevrildi. Beləliklə, təklənən və heç nəyə əli çatmayan xalqımızın qəlbində bir ümid çırağı yandı. Xalq Heydər Əliyev kimi bacarıqlı, nüfuzlu bir şəxsiyyətin onunla olduğunu, onu cəsarətlə müdafiə etdiyini gördü və ürəkləndi. Və bundan sonra müstəqillik uğrunda fasiləsiz mübarizəyə başladı.

Müstəqilliyə doğru gedən yol

Azadlıq uğrunda canlarını qurban edən şəhidlərimiz ölümü ilə ölməzliyə qovuşaraq Azərbaycanın müstəqilliyi uğrunda aparılan mübarizənin yeni bir tarixi mərhələyə daxil olmasında misilsiz xidmətlər göstərdilər, əsl şücaət, qəhrəmanlıq, ərənlik, qətiyyət və dözümlülük nümayiş etdirdilər. Şirin şərbət olan azadlıq və müstəqillik ideyaları vətən övladlarımızın başlıca şüarı, arzu və idealı idi. Şəhidlərimizin qanı bahasına əldə edilən müstəqilliyimizi qanımızla və canımızla qorumalı, ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, onu daimi əbədi və dönməz etməliyik. Bəli, candan əziz olan istiqlalımız, qazanılan müstəqilliyimiz, bu gün güclənməkdə olan dövlətçiliyimiz xalqımızın böyük nailiyyətidir və onu göz bəbəyi kimi qorumaq hamımızın müqəddəs borcu və vəzifəsidir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin dediyi kimi, tariximiz bizim üçün dərs olmalıdır və biz onun bütün səhifələrinə işıq salmaq, tariximizi bugünkü və gələcək nəsillərə daha geniş anlatmaq, düzgün və obyektiv həqiqətlərə uyğun dünyaya çatdırmaq üçün çox iş görməliyik.

20 Yanvar xalqımızın şəhidlik zirvəsi olmaqla yanaşı, müstəqillik uğrunda apardığı milli azadlıq mübarizəsində yeni istiqamətlər açdı. Çağdaş tariximizin parlaq bir səhifəsi, müstəqillik yollarında yeni bir dövrün başlanğıcı oldu. Böyük azadlıq şairi Xəlil Rza Ulutürkün "… Azadlığı istəmirəm qram-qram, qolumdakı zəncirləri qıram gərək, qıram-qıram… Azadlığı istəyirəm Günəş kimi, ümman kimi…" bəşəri arzuları xalqımıza ruh verdi.

Bəli, istiqlal savaşı uğrunda Azərbaycan xalqı daha güclü mübarizə əzmilə müstəqilliyinə can atırdı. Çünki 20 yanvar şəhidlik zirvəsindən başlanan yeni tarixi mərhələ ancaq və ancaq müstəqilliyə doğru istiqamət götürmüşdü. Bu mübarizə yollarında başlıca məqsəd bir idi: müstəqilliyə qovuşmaq! Doğrudan da Azərbaycan xalqının müstəqillik uğrunda apardığı mübarizə son nəticədə qələbə ilə başa çatdı. ***1991-ci il oktyabrın 18-də Azərbaycanın Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı*** qəbul olundu. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dediyi kimi: "Konstitusiya aktının qəbul edilməsi ilə XX əsr Azərbaycan tarixinin dördüncü mərhələsi başlandı. Biz o vaxtdan azad, müstəqil dövlətik. Xalqımız öz taleyinin, torpaqlarının, öz ölkəsinin sahibidir".

Gəncə "Tayfun əməliyyatı"nın mərkəzi seçildi

Vətəni yaşadan oğullar canından keçməyə hər an hazır idilər. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev çıxışlarında dəfələrlə demişdir ki, Azərbaycanın müstəqilliyi uğrunda şəhid olan və mübarizədə qəhrəmanlıq göstərən hər kəsin hünəri qeyd edilməli, onlara ayrıca qiymət verilməlidir. O qanlı-qadalı 1990-cı ilin 20 Yanvar günlərində respublikamızın ikinci böyük sənaye və mədəniyyət şəhəri olan qədim Gəncədə də ikinci yanvar faciəsi törədilməsi planlaşdırılmışdı. Ermənilərin havadarı olan M.Qorbaçovun və Mərkəzin planı belə idi. M.Qorbaçov tərəfindən imzalanmış fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında fərmanın 7-ci bəndində xüsusi olaraq deyilirdi ki. "…Bakı, Gəncə şəhərlərində və digər yaşayış məntəqələrində qadağan saatı tətbiq edilməsi də daxil olmaqla hər cür lazımi tədbirlər görülsün".

Fövqəladə vəziyyət haqqında fərmanda Gəncənin adı xüsusi vurğulanırdı. Təsadüfi deyildi ki, "Tayfun əməliyyatı" deyilən 20 yanvar əməliyyatının qərargahı Gəncədə yerləşirdi və ona SSRİ müdafiə naziri D.Yazov rəhbərlik edirdi. Bu baxımdan Gəncədə yerləşdirilən sovet hərbçiləri hər hansı bir siqnala bənd idi ki, Gəncə əhalisinə divan tutsun və gənclərə "dərs versin".

Həmin vaxt Gəncədə yayılan dezinformasiyalar ciddi təhlükə törədirdi. Qeyri millətlərdən olan yüzlərlə adam ailələri ilə birlikdə Gəncəni tərk edirdi. Yalançı informasiyalar artıq öz işini görmüşdü. Törədilən qırğınlara məhz müdafiə naziri marşal D.Yazov komandanlıq edirdi və onun qərargahı gizli olaraq Gəncədə yerləşdirilmişdi. 1990-cı il yanvarın əvvəllərindən Azərbaycanda müxtəlif qoşun hissələri və cəza dəstələri yerləşdirilirdi. D.Yazov gizlin Gəncəyə gələrək buradakı vəziyyətlə tanış olmuş və respublika rəhbərliyinin razılığı ilə "Tayfun" adlı qanlı əməliyyat planını hazırlamışdı. Qarşıda dəhşətli qırğınlar gözlənilirdi. Gəncəlilərin isə bu qırğın planından xəbəri yox idi. Gəncə ağır və təhlükəli günlər yaşayırdı. Həmin vaxt Moskvadan gətirilmiş çoxsaylı hərbçilər Gəncə aeroportunda və ona yaxın hərbi hissələrdə yerləşdirilmişdi. Həmin hərbçilər gözləyirdilər ki, silahla dolu eşalon qatarları Gəncəyə daxil olsun və dərhal silahlanıb dinc əhaliyə divan tutsunlar. Beləliklə, Gəncə olduqca qorxulu və təhlükəli günlərini, hətta saatlarını yaşayırdı. Belə bir vaxtda isə yubanmaq və ya ləngimək olmazdı. Bu həyəcanlı vaxtda Yusif Məmmədov sayıqlıq və operativ fəaliyyət göstərdi.

İgid vətən övladları

Faktların və tarixi hadisələrin diqqətlə araşdırılması bir daha onu göstərir ki, yanvarın 20-də Bakıda və Gəncədə eyni gündə dinc əhaliyə qanlı divan tutulmalı idi. Hətta respublikanın digər bölgələrində, o cümlədən Lənkəranda, Cəlilabadda və başqa şəhərlərdə də qırğınlar törədildi, günahsız adamlar qətlə yetirildi. Bakıda belə bir faciə törədildi. Ancaq Gəncədə bu baş tutmadı. Niyə və nəyə görə? Gəncənin namuslu, qeyrətli və vicdanlı övladları çoxdur. Onlardan biri də Gəncəni və gənclərini öz canı qədər sevən Yusif Məmmədovdur. Y.Məmmədov 1990-cı ilin yanvar günlərində Azərbaycan SSR DİN Sosial Dövlət Əmlakını dağıdanlara qarşı Mübarizə İdarəsinin Gəncə şöbəsinin bölmə rəisi vəzifəsində işləyirdi. Gəncədən Qazaxa qədər dəmiryolu stansiyalarına nəzarət şöbəsinə rəhbərlik ona tapşırılmışdı. Polkovnik-leytenant Y.Məmmədov vəzifə peşəsinə uyğun olaraq yanvarın 19-da belə bir gizli məlumat siqnalı alır ki, Gəncəyə müasir hərbi texnika və hərbi silahla dolu iki qatar daxil olmalıdır. Həmin vaxtda da Gəncə aeroportunda çoxlu sovet hərbçiləri cəmləşmişdi. Həmin hərbi qatarlar təcili olaraq Gəncəyə daxil olmalı idi. Bu silahla dolu qatarlar Gəncəyə daxil olan kimi silahlanmış sovet hərbçiləri Gəncəyə və gənclərə divan tutmalı idi. Kim bilir, belə dəhşətli qırğın necə nəticələnəcəkdi.

Gəncəyə gələn "ölüm qatarları"

Polkovnik-leytenant Yusif Məmmədov həmin məlumatı bilən kimi, özünü təcili Ucar dəmiryolu stansiyasına çatdırır. Burada o, stansiyanın rəisi Namiq Rəhimovla görüşərək Ucardan keçəcək 2674 saylı qatarın saxlanılmasını tələb edir. O isə bunun arzuolunmaz nəticəsini Yusif Məmmədova xatırladır. Yusif Məmmədov bu işin məsuliyyətini üzərinə götürür və qatar saxlanılır. Bu şəraitdən istifadə edən Y.Məmmədov özü elektrovozun kabinəsinə qalxaraq maşinistdən aparılan yükün sənədlərini tələb edir. Vəzifəsinə görə Yusifin belə bir səlahiyyəti var idi. Sənədlərdə "ST.Kirovabad" yazılmışdı. Bu məlumatdan xəbərdar olan Y.Məmmədov başa düşür ki, hərbi sursat ancaq Zazalı stansiyasında boşaldıla bilər. O, Gəncə aeroportunun rəisi Adil Mövsümovla telefon əlaqəsi saxlayır. Qərara alınır ki, nəyin bahasına olursa-olsun, həmin qatarların Gəncəyə yaxınlaşmasına imkan verilməsin.

Ucar ağsaqqallarını başına yığan Yusif Məmmədov rus qoşunlarının rəhbərləri ilə danışıq aparmaq məqsədilə onları yeməkxanaya dəvət edir. Rus zabitləri yeməkxanada olan zaman dəmiryolçular elektrovozu depoya verirlər. Beləliklə, 2674 saylı "ölüm qatarı" dayandırılır. Ancaq 2614 saylı qatar isə hərəkətdə idi. Y.Məmmədov həmin qatarı da dayandırmaq məqsədilə plan hazırlayır. Bu məqsədlə Ucardan Kürdəmirə gəlir. Yusif Məmmədov burada stansiyanın rəisi Allahverdi Bədəlovla görüşür. Rəislə danışıqdan sonra o, bayaqdan bəri onu intizarda gözləyən camaatın qarşısına çıxaraq vəziyyət barədə onlara ətraflı məlumat verir. Beləliklə, Ucar və Kürdəmir camaatının yüksək fədakarlığı, Y.Məmmədovun göstərdiyi qətiyyət sayəsində Gəncədə törədiləcək qırğının qarşısı alınır. Lakin o zamankı rəhbərlik Y.Məmmədova təzyiqlər göstərir və hətta o, tutduğu vəzifədən uzaqlaşdırılır. Hazırda Gəncə Veteranlar Şurasının sədri vəzifəsində işləyən Yusif Məmmədov şəhərin ictimai həyatında fəal iştirak edir, gənc nəslin vətənpərvərlik tərbiyəsi ilə məşğul olur.

Fədakarlıq və qəhrəmanlıq

20 Yanvar faciəsi güclü ibrət dərsi oldu. Faciəyə hüquqi-siyasi qiymətin verilməsi, ondan obyektiv nəticə çıxarmaq üçün ümummilli liderimiz Heydər Əliyevin tapşırıq və göstərişlərindən sonra mümkün oldu. 20 Yanvar faciəsinin törədilməsi ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin 29 yanvar 1994-cü il tarixli qərarının böyük əhəmiyyəti oldu. Qərarda 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi, günahkarlar aydınlaşdırıldı, elmi idarələr və tədqiqatçı alimlər qarşısında faciənin tədqiq edilməsi və işıqlandırılması vəzifələri müəyyənləşdirildi.

2000-ci il yanvarın 17-də ***"20 Yanvar şəhidi"*** fəxri adı təsis edildi və azadlıq uğrunda qəhrəmancasına həlak olan igid insanlara verildi (ölümündən sonra). Heydər Əliyevin göstərişi ilə 20 Yanvar şəhidlərinə Bakının ən yüksək yerində abidə kompleksi ucaldıldı.

Bu gün Azərbaycan xalqı azadlıq uğrunda canlarını qurban edən şəhidlərimizin və cəsur Vətən övladlarının qəhrəmanlıq mübarizəsini çox böyük hörmət və ehtiramla əziz tutur, onların igidliyini yüksək qiymətləndirir. Şəhidlərimizin və qəhrəman övladlarımızın qanı və canı bahasına qazanılan müstəqilliyimizi qorumalı, ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, onu daimi, əbədi və dönməz etməliyik.

Nuru MƏMMƏDOV,
tarix elmləri doktoru, BDU-nun professoru,
Əməkdar müəllim.
Fəxrəddin USENOV,
Gəncə Dövlət Universitetinin dosenti.